**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin müsabiqəyə çıxarılan vakant vəzifələri haqqında məlumat**

**Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsi, Miqrasiya siyasəti və emiqrasiya idarəsi,** inspektor

İş yerinin ünvanı: Bakı şəhəri, Binəqədi rayonu, 3123-cü məhəllə, Binəqədi şossesi 202

Qulluq funksiyaları: Qulluq funksiyaları: Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Nazirlər Kabinetinin qərar və sərəncamlarının, dövlət proqramlarının və beynəlxalq sənədlərin icrası ilə bağlı təhlillər aparmaq, müvafiq təklif və hesabatları hazırlamaq; İdarənin səlahiyyətlərinə aid məsələlər üzrə müraciətlərə baxmaq və müvafiq tədbirlər görülməsi üçün təkliflər vermək; İdarənin fəaliyyət istiqamətlərinə uyğun beynəlxalq təcrübəni öyrənmək, onun tətbiqi ilə bağlı müvafiq təkliflər hazırlamaq; regionda baş verən miqrasiya proseslərinin təhlilini aparmaq və bu barədə müvafiq qaydada təkliflər vermək; İşgüzar və peşə keyfiyyətlərini yüksəltmək, əmək və icra intizamına, etik davranış qaydalarına riayət etmək.

Vəzifənin tutulması şərtləri: təhsil: hüquq, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, politologiya, regionşünaslıq ixtisasları üzrə ali təhsil, staj: dövlət orqanında azı 2 (iki) il iş stajı, kompüter bilikləri: Microsoft Windows, Microsoft Office (orta-yüksək səviyyədə), xarici dil: rus dili, ingilis dili (orta-yüksək səviyyədə).

**Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsi, Hüquqi təminat idarəsi,** inspektor

İş yerinin ünvanı: Bakı şəhəri, Binəqədi rayonu, 3123-cü məhəllə, Binəqədi şossesi 202

Qulluq funksiyaları: Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Nazirlər Kabinetinin qərar və sərəncamlarının, dövlət proqramlarının icrası ilə bağlı təhlillər aparmaq, müvafiq təklif və hesabatları hazırlamaq; Xidmətin fəaliyyətini tənzimləyən qanunvericilik aktların, təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrini hazırlamaq; Normativ hüquqi aktların və digər qanunvericilik sənədlərin, beynəlxalq müqavilələrin, təşkilati-sərəncamverici sənədlərin layihələrinin hüquqi ekspertizasını həyata keçirmək; Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq müraciətlərə və sorğulara baxmaq və cavablandırmaq; Hüquqi maarifləndirmə işini aparmaq; İşgüzar və peşə keyfiyyətlərini yüksəltmək, əmək və icra intizamına, etik davranış qaydalarına riayət etmək.

Vəzifənin tutulması şərtləri: təhsil: hüquq, beynəlxalq hüquq ixtisasları üzrə ali təhsil, staj: dövlət orqanında hüquq sahəsi üzrə azı 2 (iki) il iş stajı, kompüter bilikləri: Microsoft Windows, Microsoft Office (orta-yüksək səviyyədə), xarici dil: rus dili, ingilis dili (orta-yüksək səviyyədə).

**Miqrasiya proseslərinin təhlili və informasiya təminatı baş idarəsi,** inspektor

İş yerinin ünvanı: Bakı şəhəri, Binəqədi rayonu, 3123-cü məhəllə, Binəqədi şossesi 202

Qulluq funksiyaları: İnformasiya təhlükəsizliyi strategiyasına uyğun siyasət və prosedurların tətbiq edilməsi, informasiya sistemlərinin və infrastrukturunun təhlükəsizlik risklərinin mütəmadi qiymətləndirilməsi və hesabatların hazırlanması, informasiya təhlükəsizliyi insidentlərinin araşdırılması, insidentlərin qarşısının alınması və cavab tədbirlərinin hazırlanması, şəbəkənin, serverlərin və istifadəçi sistemlərinin təhlükəsizliyinin təmin edilməsi, təhlükəsizlik tədbirlərinin effektivliyinin monitorinqi və təhlükə aşkarlandıqda operativ tədbirlərin görülməsi, şəbəkə və sistem təhlükəsizliyinin təkmilləşdirilməsi üçün İT mütəxəssisləri və kənar xidmət təminatçıları ilə sıx əməkdaşlıq edilməsi, SIEM, DLP, NGFW, WAF, NAC və Endpoint Security kimi təhlükəsizlik həllərinin tətbiqi və idarə edilməsi, Firewall, VPN, IPS/IDS və digər təhlükəsizlik texnologiyalarının idarə edilməsi və optimallaşdırılması, ISO 27001, NIST, PCI DSS, COBIT və digər beynəlxalq təhlükəsizlik standartlarına uyğunluğun təmin edilməsi, təhlükəsizlik siyasətlərinin və prosedurlarının hazırlanması və periodik auditlərin həyata keçirilməsi, işçi heyətinin informasiya təhlükəsizliyi qaydaları və kibertəhlükələrlə bağlı maarifləndirilməsi və təlimlərin keçirilməsi, kiberhücumlar, məlumat sızması və digər fövqəladə hallarda operativ qərarların verilməsi və icrası.

Vəzifənin tutulması şərtləri: İnformasiya texnologiyaları, kompüter elmləri və ya əlaqəli sahədə ali təhsil, informasiya təhlükəsizliyi mütəxəssisi vəzifəsində ən azı 3 (üç) il iş stajı, şəbəkə təhlükəsizliyi və protokollar (TCP/IP, DNS, DHCP, VPN, VLAN, NAT və s.), NGFW (Palo Alto, FortiGate və s.) və WAF administrasiyası, Active Directory, LDAP, SIEM, DLP, IPS/IDS sistemləri, kriptoqrafiya və məlumat şifrələmə texnologiyaları, informasiya təhlükəsizliyi standartları (ISO 27001, NIST CSF, PCI DSS, COBIT və s.), Secure Email Gateway və e-poçt təhlükəsizliyi həlləri. Müvafiq sertifikatlara sahib olanlara üstünlük veriləcəkdir (CCNA Security, PCNSA (Palo Alto Networks), CompTIA Security+/Network+, CySA+ (Cybersecurity Analyst) və s.).

**Lənkəran regional miqrasiya idarəsi**, inspektor
İş yerinin ünvanı: Lənkəran şəhəri, Göyşaban kəndi
**Şəki regional miqrasiya idarəsi**, inspektor
İş yerinin ünvanı: Şəki şəhəri, Z.Əliyeva küçəsi 60
**Xaçmaz regional miqrasiya idarəsi**, inspektor
İş yerinin ünvanı: Xaçmaz şəhəri, H.Əliyev prospekti 13.
**Ağsu regional miqrasiya idarəsi**, inspektor
İş yerinin ünvanı: Ağsu şəhəri, M.Ə.Rəsulzadə küçəsi 178
**Şirvan regional miqrasiya idarəsi**, inspektor
İş yerinin ünvanı: Şirvan şəhəri, S.Zeynalov küçəsi 33.

Qulluq funksiyaları: Regionda miqrasiya proseslərini izləmək və təhlil etmək; vətəndaşların müraciətlərinin qeydiyyatını aparmaq, sistemləşdirmək və sahələr üzrə qruplaşdırmaq; vətəndaşların müraciətlərinə qanunvericiliklə müəyyən edilmiş qaydada baxmaq və müvafiq təhlillər aparmaq; fəaliyyət istiqamətlərinə uyğun olaraq beynəlxalq təcrübəni öyrənmək; məlumatları vahid miqrasiya məlumat sisteminə daxil etmək; daxil olan

müraciətləri araşdırmaq, cavablandırmaq, təkliflər vermək; işgüzar və peşə keyfiyyətlərini yüksəltmək, əmək və icra intizamına, etik davranış qaydalarına riayət etmək.
Vəzifənin tutulması şərtləri: təhsil: hüquq, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, dövlət və bələdiyyə idarəetməsi, politologiya, regionşünaslıq, sosiologiya, iqtisadiyyat, maliyyə ixtisasları üzrə ali təhsil, kompüter bilikləri: Microsoft Windows, Microsoft Office (orta-yüksək səviyyədə), xarici dil: rus dili, ingilis dili (orta-yüksək səviyyədə).

**Yevlax şəhər Müvəqqəti yerləşdirmə mərkəzi**, inspektor
*İş yerinin ünvanı:* Yevlax şəhəri, H.Əliyev prospekti 99a/4
Qulluq funksiyaları: Mərkəzə yerləşdirilən şəxslərin qüvvədə olan qanunvericilik aktlarında nəzərdə tutulmuş hüquqlarının və qanuni mənafelərinin qorunmasına, onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə və saxlanılması şəraitinə yönəldilmiş qaydaları təmin etmək, onların psixoloji müayinəsinin keçirilməsini həyata keçirmək; daxil olan müraciətləri araşdırmaq, cavablandırmaq, təkliflər vermək; işgüzar və peşə keyfiyyətlərini yüksəltmək, əmək və icra intizamına, etik davranış qaydalarına riayət etmək.
Vəzifənin tutulması şərtləri: Ali təhsil, kompüter bilikləri: Microsoft Windows, Microsoft Office (orta-yüksək səviyyədə), xarici dil: rus dili, ingilis dili (orta-yüksək səviyyədə).

**Yuxarıda qeyd olunan vakant vəzifələrə iddia edən şəxslər miqrasiya sahəsinə aid müvafiq normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini bilməlidirlər.**

**Digər tələblər:**
**problem həlletmə və qərarvermə: problemlər qarşısında özünü itirməmək, problemin səbəbini, kökünü müəyyən etmək, məlumatlar və faktlar əsasında düzgün mühakimə yürütmək, onun həllinə obyektiv yanaşaraq həmin problemi həll etmək və düzgün qərar qəbul etmək qabiliyyəti;**
**təşkilatçılıq: ona tapşırılmış işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi ilə əlaqədar özünün bilik və bacarıqlarını istifadə edə bilmək qabiliyyəti;**
**şifahi və yazılı ünsiyyət: fikir, rəy və şifahi nitq, yazışmalar və hərəkətlər vasitəsilə ifadə etmək qabiliyyəti;**
**yaradıcılıq və təşəbbüskarlıq: məsələlərin həlli və icrası üçün yeni təkliflər vermək, fikirlər irəli sürmək, onları həyata keçirə bilmək, gündəlik işlərdən əlavə işlər görməyə təşəbbüs göstərmək qabiliyyəti.**